# Qəbələ rayonunda 27 sentyabr – Anım Günü tədbiri keçirilmişdir

27 sentyabr – Anım Günü ilə əlaqədar Qəbələ rayon Şəhidlər Xiyabanında ümumrayon tədbiri keçirilmişdir. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə müəssisə və təşkilat rəhbərlərinin, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibə iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə öncə Dövlət Himni səslənmiş və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Ordu quruculuğu strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox böyük uğurla davam etməsindən, onun



bir çağırışıyla dəmir yumruq kimi birləşən ordu-xalq birliyinin əzmlə mübarizə aparmasından və Böyük Zəfərlə yekunlaşan qələbəmizdən bəhs etmiş, şəhidlərə Allahdan rəhmət, şəhid ailələrinə səbr, qazilərə can sağlığı arzulamışdır. Şəhid valideynləri, Vətən Müharibəsi iştirakçıları, ağsaqqallar, gənclər və Xocalı şəhər sakinləri adından çıxış edən Cəlil Səgərçinov, Elşad Abdurahmanov, Telman Abduxalıqov, Teymur Alışanov və Kamal Məmmədov Vətən müharibəsində şəhid və qazilərimizin qəhrəmanlıqlarından söz açmış, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər. Tədbir iştirakçıları torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin xatirəsinə ucaldılmış kompleksi ziyarət edərək, məzarlara və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüşlər. Həmçinin gün ərzində 27 sentyabr – Anım günü ilə əlaqədar rayonda fəaliyyət göstərən bütün məscid və kilsələrdə şəhidlərin ruhuna dualar oxunmuşdur.

# Obasına dönən mayor

**Bəşər dəyişdirməz bəşər halını...**

Hər fəsil insan ömrünə bir avaz gətirər, rəngarənglik bəxş edər. Təbiət öz donunu dəyişdikcə , ömürlər də görünüşünü təzələr. İnsanlar geyim formasını, məişət tərzini, düşüncələrini belə fəslə uyğun formalaşdırar. Hər fəslin özünəməxsus qayğı yükü insanın həyat tərzində öz əksini tapar.

Yayın istisi solduqca payız sərinliyi insanlara bolluq rəmzi olan bu fəslin gəlişini təzahür etdirirdi. Qızılı payız öz rəngini almaq üçün təbiətin libasını təzələyirdi. Yaşıllıqlar qızılı rəngə qərq olurdu. Bu isə payız dumanlarını, küləklərini, yağışlarını çoxaldırdı. Yalnız bəşər dəyişdirməzdi bəşər halını. Nə gecə, nə gündüz öz anlarını güzəştə getməzdi, hər biri öz saatında təzahür edərdi.

Bir neçə il idi ki, payız fəslinin ilk ayının gəlişi insanlarda həyəcan yaradır, qaysaq tutmayan yaraları payız küləyi çözələndirirdi. 2020-ci ilin 27 sentyabrı, 2-ci Vətən müharibəsinin başlanğıc tarixi kimi insan yaddaşını silkələyirdi. Sentyabr ayı öz tarixi missiyasını dəyişmişdi. 2 il idi ki, bu payız anım günlərini və yeni yazılmış Zəfər tarixinin qeyd olunduğu bir tarixin başlanğıcı kimi qeyd olunurdu. Hər il də bu ayda erməni terroristləri münaqişə törədərək öz "missiyalarını" davam etdirirdilər. Ancaq vətən torpaqları azad olduqca, asayiş qorunduqca vətən fədailərinin acısı payız yağışı kimi qəlblərə axırdı.

**Təbiətin hissi...**

Sentyabr ayı bu il payızı daha erkən gətirmişdi elimizə. Havalar öz istisini də, soyuğunu da tarazlaya bilmirdi sanki. 3 il əvvəl 2-ci Vətən müharibəsi başlayanda dua edərdik ki, yağışlar yağmasın, igid balalarımız döyüşlərdə hava çətinliyi yaşamasın, tanış olmayan dağ, dərə, yüksəkliklərdə döyüşlərini müvəffəqiyyətlə davam etdirsinlər. Həmçinin sentyabr ayı başlayan kimi həm də erməni "siyasətinin" qıcıq olması halının başlanması hər kəsin yaddaşında bir "həyəcan" kimi yaşanırdı. Axı mənfurlar və onların havadarları 2020-ci ilin sentyabrında başlanan Qisas müharibəsinin məğlubiyyətinin acısından, dəmir "yumruğun" zərbindən, acı xatirələrinin və qondarma tarixlərinin "qırmızı" məğlubiyyətinin xofundan heç uzaqlaşa, barışa bilmirdilər. Məhz başlanğıc tarixindən xoflanaraq hər il sentyabr ayında terror hadisələri törədir, çaxnaşmalar salırdılar...

Göy üzündə buludlar da əvvəldən hiss edirmiş kimi bir təlatümdə idi; ara vermədən yer üzünə səpələnir və hər damcısı ilə insanlarda





bir "oyanış" yaratmağa çalışırdılar. Hər gövdəyə, yarpağa, ləçəyə düşən yağış damcısı ağır bir daş kimi şəhid, qazi, əsgəri xidmətdə olan əsgər əzizlərinin qəlbinə dəyir, onları silkələyirdi, Şəhid əzizlərinin üreyini dələn hər "damcı dənəsi" qarşıdakı terror hadisələrinin acısını xəbər verirdi sanki. Ancaq şəhid ruhları göy qübbəsində ağ rəngini dəyişən buludların arasında birgə idi. Bu birgəlik hissi isə ordumuzun sarsılmaz gücü və qəhrəmanlığın nümayişinin təzahürü idi. Düşmən nə qədər çaxnaşma salsa da Azərbaycan ordusu ona irəliləmək imkanı vermirdi. Bu dəfə də etdiyi terrorist hərəkətlər ona çox ağır başa gəldi. İgid hərbçilərimiz onların bu hərəkətini də "qiymətləndirdi". Bu qiymətin nəticəsində artıq Xankəndi boşaldılır və mənimsənilən, sülhməramlıların köməyi ilə düşmən tərəfin ixtiyarında olan qədim Azərbaycan torpaqları işğaldan azad olundu. Qondarma Qarabağ "tör- töküntüləri" özləri torpaqlarımızı tərk edirdilər.

**Acı kəlam**

Cəmi bir günlük müharibə küləyi əsdi. Bu bir günün döyüş əzmində tarix yenidən təzələndi. Ancaq bilirik ki, neçə-neçə igidlərimiz qəhrəmanlıq tarixi yazarkən torpaqlarımız uğrunda canlarını fəda etdilər... Lüğətimizdə görmək, eşitmək istəmədiyimiz 3 kəlmə söz var. Bu 3 kəlmə göz yaşlarını "dəniz" edər, könülləri qırar, qədləri əyər, hər kəsi, ələlxüsus əziz sanılan hər kəsi buruluğanlı, qapqaynar bir gölə qərq edər. Nə qədər qürurverici olsa, fəxr edilsə belə daxili yanğı insanın xaricinə belə acı tədir göstərər: - "Vətən, şəhidin var!"...

Qəbələyə də 2 nur üzlü şəhid gəldi yenidən sentyabrda!... Nər kimi döyüşən igidlər Bayraq libasını geyinərək əzizləri ilə son görüşə, ocağına" çiyinlərdə" gəldilər... Acısından "yumağa" dönən valideynlər yalnız övladlarının igidliklə Vətən yolunda şəhadətə qovuşmasından "təskinlik" tapırdılar. Axı ölüm var, ölüm də var ki... hər kəsə nəsib olmayan əbədiyyət ömürlü...

Bu xəbər qədim Qəbələnin Mirzəbəyli və Tüntül kəndlərinə ünvanlanmışdı...

**Hərbçilərin hərbçisi**

Xəyyam Mirazim oğlu Səmədov 16 yanvar 1986-cı ildə Mirzəbəyli kəndində anadan olmuşdu. Onu da qeyd edək ki, 2-ci Vətən müharibəsində bu kənddən 64 nəfər gənc döyüşlərdə iştirak etmiş, igidliklə döyüşərək zəfərlə obalarına qayıtmışdılar!

Ailə və qohumlarla söhbət zamanı məlum oldu ki, Xəyyamın atası, bacısının həyat yoldaşı və qohumlarında hərbçi işləyənlər də olmuşdur. Atası Mirazim Səmədov 1977-1987-ci illərdə hərbçi işləmişdir. Mirazim Səmədovun dayısı oğlanları Şaiq Seyidov (həm də kürəkən) və Faiq Seyidov hərbçi olmuşlar. Faiq Seyidov 2000-2013-cü illərdə hərbçi işləmiş, qəfil bir faciənin qurbanı olmuş, Naxçıvanda 30 yaşında vəfat etmişdir. Şaiq Seyidov isə 2020-ci ilin 2-ci Vətən müharibəsinin iştirakçısıdır, hazırda ehtiyatda olan hərbçidir. Bəlkə də ailədə hərb sənətinə olan maraq və sevgi Xəyyamda bu sənətə yiyələnmək arzusu yaratmışdı.

Xəyyam orta təhsilini doğulduğu kənddə almışdı. Ailədə 3 övlad idilər: Gülşən, Xəyyam, Elşad. Xəyyam orta təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Ali Hərbi məktəbdə təhsilini davam etdirdi. 4 illik təhsildən sonra Beyləqandakı "N" saylı hərbi hissədə işə başladı. Xəyyam Səmədov Daşkəsən, Tovuz, Beyləqan, Pirikükül və Laçında hərbi xidmətdə olmuşdur. Peşəsinə həmişə hörmətlə yanaşmış, general-mayor Polad Həşimovun hərbçi xarakteri və fəaliyyəti həmişə ona örnək olmuşdu. Məhz bu, hərb sənətində titullar qazanmasına bir "yaşıl işıq" olmuş, öz bacarıq və nümunəvi xidmətilə mayor rütbəsinə yiyələnmişdi. Xidməti dövründə müharibə və terror hadisələri ilə mübarizədə öndə döyüşmüşdü.

**Gümanlar... səksəkələr...**

Mirazim Səmədovun dedikləri: - Xəyyam mükəlləfiyyətli insanların içində böyüyürdü. Özüm hərbçi olmuşam, kürəkənim hərbçi olub və bu sənətin özəlliyindən, müqəddəsliyindən bəhs edən söhbətlər onun yaddaşında iz buraxaraq onda bu peşəyə sevgi oyatmışdı. Bütün çətinliklərə rəğmən o, əsil "kişi" sənətini seçdi. Bilirdim ki, bu peşənin sahiblərini həyatda nələr gözləyir... Hərbçi vətən fədailiyinə gedən yoldur, hər addımında onu "sürprizlər" gözləyir. Hərbçilik şəhidliyin astanasıdır! 2020-ci il 2-ci Vətən müharibəsi zamanı da, hər terror hərəkatı anlarında da ona nə isə olacağı gümanları məni rahat buraxmırdı. Mənfur düşmənlərdən vətəni qoruyan oğulların valideynləri ömürlərinin hər anında səksəkəli, düşüncələrində gümanlarla yaşarlar. Vətənin azadlığı uğrunda müsəlləh əsgər övladların əzizləri bu sənəti seçən övladlarının fəxr-fəxarətini, qürurunu yaşasalar da, yuxuları qeybə çəkilər, gümanlar yaddaşından, gümanlı hadisələr gözləri önündən heç uzaqlaşmaz. Son hadisələr baş verməmişdən əvvəl də ermənilərin törətdiyi hadisələr, onlara cavab veriləcəyini aşkar sezdirirdi. Xəyyamla əlaqə saxlarkən hiss etdirməsə də gərginliyi bir hərbçi kimi hiss edirdim... Xəyyam da... Özümdən belə xəbərləri uzaqlaşdırmaq istəsəm də, gerçək ola biləcəyi ilə razılaşırdım bəzən, çünki bu sənəti seçərkən onun bir Vətən fədaisi olduğu həqiqət idi... Özümdən uzaqlaşdırmaq istədiyim gümanlar səksəkəli ömrümdə gerçəkləşdi... Qəfil zəngin acıları çox ağır idi. Nər oğul böyüt, doyunca görə bilmə, əzizləyə bilmə... Onun yadigarları - 2 oğul balasının üzünə belə baxa, təskinlik verə, ovuda bilmirəm. Yalnız özüm-özümə onda təskinlik tapıram ki, ağıllı, savadlı, igid, hər kəsin hörmət və rəğbətini qazanan, qorxmaz bir övladın - şəhadətə qovuşmuş Xəyyamın atasıyam! Xəyyam Vətən yolunda canını qurban verdi!

Mirazimin ailəsi ilə görüşə onun müəllimi, kəndin təqaüdçü müəllim-sakini, həm də yazar Mirhəsən Ağayev və yazar, Aydınqışlaq kənd sakini Müseyib Ağayevlə getmişdik. Mirazim əvvəlcə müəllimi qarşısında ağlamaq istəməyərək dayansa da; - Bağışla, müəllim, bu itkinin yanğısına dözmək çətindir dedi, - selə dönən göz yaşını saxlaya bilmədi...

**Şəhidin anası isə...**

Göz yaşları Səba ananın tam cismini çulğamışdı, nə danışmağa taqəti vardı, nə də gözlərini açıb ətrafa baxmağa...

Xəyyamın bacısı Gülşən müəllimə, kiçik qardaşı Elşad da qürur "donlu", hüzn libasında idilər. Çöhrələrinə dağ kölgəsi kimi bir dərd məskən salmışdı...

Xəyyamın ömür-gün yoldaşı Piyalə xanım isə Xəyyam yadigarları Murad və Nicatı ovundururdu. Həyatın acı zərbəsini hələ tam anlamayan Murad 5 - ci , Nicat isə 4 - cü sinifdə - həm də atasının oxuduğu məktəbdə oxuyurdular...

**Mayor kəndə gəlirdi...**

Kəndə gəlirdi... Bu gəlişi əvvəlki kimi deyildi... Əzizlərinin sevinci ona qucaq açmayacaqdı bu dəfə. Sakitcə ata evinin ocağına daxil olmayacaqdı. Baxışları əzizlərini "gəzməyəcəkdi"... 2 körpəsi ona "ata" deyib sarılmayacaqdı!.. Libasını dəyişmişdi; çox sevdiyi Azərbaycan bayrağına bürünmüşdü; yarasını anasının, əzizlərinin görməməsi üçün... ayaqüstü gəlməmişdi. Bu dəfə bütün vətənpərvər qəbələlilər, kənd camatı qarşılayırdı onu. Bu dəfə gözlər payız yağışı kimi "sel-suda" boğulurdu... Qəddini əymişdi ailəsinin; 21 sentyabr payız gününü qar-sazaqlı bir qış gününə çevirmişdi.

Mayor Xəyyam gəlirdi ocağına... son görüşə... Şəhid olduğu Qarabağ torpaqlarını yağılardan azad edən bir igid kimi... Gürşad yağıntılar altında "günəş qoxulu" bir qələbəylə. Fəqət hər tərəfi lərzəyə salan hüznlü səslərin sədaları ilə... Bütün qəbələlilərin göz yaşından keçərək, ürək yangılarını adlayaraq, Mirzəbəyli və ətraf kəndlərin camaatını təlatümlü "dənizə" döndərərək gəlirdi. Günəş də ondan qaçmışdı, acısından qaçmışdı, bu gəlişi axşamın qaranlığına "ünvanlamışdı; göz yaşlarını görməmək üçün...

Bu gəliş onu əbədiyyət dünyasına qərq edən bir tarix idi... Həmişəbahar ömürlü, ürəklərə məskən salan, tarixi bir də yenidən yazan mayor Xəyyam bala! Sən həmişə qəlbimizdə yaşayacaqsan!

**BİBİXANIM.**